Ordumuz düşmənlə apardığı 44 günlük haqq savaşından qalib ayrıldı. Bu tarixi qələbə Azərbaycanın igid, vətənpərvər, torpağımızın hər qarışı üçün canını qurban verməyə hazır olan oğullarımız sayəsində əldə edildi. Döyüşçülərimizin qəhrəmanlıqları haqqında hələ uzun illər danışılacaq. Qanla tarix yazan, torpaqlarımıza azadlıq gətirənlər sırasında onun da imzası var: Nəsibov Xudat Fərrux oğlu. Qazax rayonunun Orta Salahlı kəndində olan





# “Şəhidsiz, qazisiz qələbə olmur...”

Xüsusi Təyinatlı Kəşfiyyat bölüyünün kəşfiyyatçısı X.Nəsibov Şuşa şəhərinin Daşaltı kəndində gedən döyüşlər zamanı yaralanıb.
Vətən müharibəsində iştirakı, yaşadıqları barədə məlumat əldə etmək, qazimizi daha yaxından tanımaq üçün onunla həmsöhbət olduq.

## Şuşa döyüşlərində yaralanan igidimiz yenə hərb yoluna davam edəcək

**- Xudat bəy, özünüz barədə məlumat verərdiz...**

- 1992-ci ildə Qazax rayonunun Orta Salahlı kəndində anadan olmuşam. 1998-ci ildə Səməd Hacıyev adına Orta Salahlı kənd tam orta məktəbinin 1-ci sinfinə gedib, 2009-cu ildə həmin məktəbi bitirmişəm. 2010-cu ildə Tərtər rayonuna hərbi xidmətə yollandım. 2012-ci ilin yanvar ayında isə hərbi xidməti başa vurmuşam. Ailəliyəm, bir qız övladım var.

**- Bəs, necə oldu ki, hərbə marağınız yarandı?**

- Uşaq vaxtlarımdan olub. Məlumdur ki, Qazax rayonu düşmənlə sərhəddə yerləşir. Uşaqlığımda düşmənlərimiz haqqında böyüklərimizdən eşitdiklərim, televizya verilişlərində gördüklərim, Qarabağ və Qazaxın yağı düşmən tapdağında olan torpaqları mənə daim intiqam və qisas hislərini aşılayıb. Ona görə də böyüyəndə hərbiçi olmaq istəmişəm. Hərbi xidmət vaxtım gəldi, nəhayət ki, arzularımın astanasında idim... Tərtərdə sərhəd bölgəsində hərbi xidmət keçdim, bu xidmət mənə çox şeylər öyrətdi. İstər bir fərd kimi formalaşmağımda, həyatı daha dərindən dərk etməyimdə, istərsə də nankor düşmənlərimizi daha dərindən tanımağa çox kömək etdi. Hərbiyə sevgim heç vaxt azalmadı, əksinə məqsədimi daha da dəqiqləşdirdim. Hərbi xidmətimi başa vurduqdan sonra müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başladım. Bundan sonra hərbi bilik və bacarıqlarımı daha da təkmilləşdirmək üçün Silahlı Qüvvələrimizin Təlim Tədris mərkəzində Gizirlik kursunu bitirdim. Kursu bitirdikdən sonra Ağstafa rayon N saylı Əlahəddə Kəşfiyyat Taborunun, Xüsusi Təyinatlı Kəşfiyyat bölüyünün kəşfiyyatçı sanitar vəzifəsinə təyin olundum.

**- Sentyabrın 27-dən başlayan hərbi əməliyyatlar sizin kimi döyüşçülərimizin qəhrəmanlığı sayəsində qələbə ilə sonlandı. Nə hislər keçirirsiz?**

- Əlbəttə ki, qəlbi vətən həsrəti, yurd sevgisi ilə döyünən hər bir Azərbaycan vətəndaşı, hərbi and içmiş, silahlı qüvvələrdə xidmət göstərən hərbiçi kimi mən də bu günü səbrsizliklə gözləmişəm. Döyüşlər başlayanda bizdə yaranan əhvali - ruhiyyə, ab - havanı sözlə ifadə edə bilmirəm... Sentyabrın 27-də Silahlı Qüvvələrimizin Ali Baş Komandanı Cənab İlham Əliyevin əmri ilə rəşadətli ordumuza əks hücum tapşırığı verildi. Əks - həmlə əməliyyatında ordumuzun, hərbi arsenalımızın gücü ilə 30 illik həsrətə son qoyuldu. Düşmən tapdağında olan torpaqlarımızı azad etdik. Zəfər şəhidlərimizin canı, qazilərimizin qanı, əsgər və zabitlərimizin şücaəti ilə əldə olundu. Bu zəfərin toxumlarında payım olduğu üçün özümü çox şanslı və xoşbəxt hiss edirəm.

**- Amma qələbəmizə "qara yaxmaq" istəyənlər də oldu. Bu barədə nə düşünürsüz?**

- Azərbaycanın uğurları, regionda olan inkişaf tempi həmişə bizi istəməyən qüvvələr tərəfindən qısqanclıqla qarşılanıb. İstər daxildə, istərsə də xaricdə olan və düşmənlərimiz sayılan bu nankor qüvvələr uğurlarımıza sevinə bilməzdilər, nə zamansa sevinməyiblər də... Qələbəmizi həzm edə bilməyənlər də çox oldu. Bu qələbəmizə "qara yaxmaq" istəyənlər çox olsa da, millətimiz sözün əsl mənasında ordu və Ali Baş Komandanın yanıda olduğunu göstərdi, sübut etdi... 27 Sentyabr bəlkə də böyük birlik, həmrəylik günümüzün başlanğıcı idi. Bu birlik nəticəsiz qala bilməzdi. Ali Baş Komandanımızın söylədiyi kimi dəmir yumruq kimi birləşib yağı düşməni doğma ata-baba torpaqlarımızdan iti qovan kimi qovduq. Nəticə göz qabağındadı. "Qara yaxmaq" istəyənlərin niyyəti arxadan atılan daş kimi topuğa dəydi...

> “Bu zəfərin toxumlarında payım olduğu üçün özümü çox şanslı və xoşbəxt hiss edirəm”

**- Bir az da yaralanmanız barədə danışaq...**

- 2020-ci ildə cəbhədə iki dəfə yaralandım. Birinci dəfə iyulun 12-də Tovuz istiqamətində gedən döyüşlər zamanı ayağımdan qəlpə yarası aldım. Yaram elə də ağır olmadığı üçün qısa müddətə ordu sıralarında xidmətimə davam etdim. Sentyabrın 27-də başlayan İkinci Qarabağ Müharibəsi zamanı Kəlbəcər, Füzuli, Hadrut, Suqovuşan istiqamətində gedən döyüşlərdə xüsusi təyinatlı kəşfiyyatçı kimi iştirak etmişəm. Noyabr ayının 6-da Şuşa şəhəri Daşaltı kəndində qızğın döyüşlər zamanı döş qəfəsimdən güllə yarası aldım.

**- Sağaldıqdan sonra hərbidə qalmağı düşünürsüz?**

- Allahın köməkliyi ilə tam sağaldıqdan sonra yenə hərbi xidmətimi davam etdirəcəm. Çünki, bu mənim sevib - seçdiyim şərəfli həyat yolumdur. Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmət etdiyim üçün fəxr edirəm!

**- İkinci Qarabağ müharibəsi ilə bağlı xatirələriniz maraqlıdır. Yaddaşınızda qalan çətin və maraqlı anlar barədə danışmağınızı istərdim...**

- Şəhidlərimiz, qazilərimiz, əsgər və zabitlərimizin sayəsində və ümumxalq birliyimiz ilə qələbə çaldıq. Allah şəhid qardaşlarımıza rəhmət eləsin, məkanları cənnət, ruhları şad olsun... İnanın ki, hər günümüz yaddaqalan xatirələrlə dolu idi. Şirin və döyüş yoldaşlarımızı itirdikdə acı xatirələrimiz... Müharibənin öz qanunları var. Şəhidsiz, qazisiz qələbə olmur...

**Günlərlə ac qaldığımız, yemək yeməyi yaddan çıxardığımız olurdu. Hətta belə bir maraqlı hadisə oldu: Tam iki gün idi ki, bir tikə çörək də yeməmişdik. Hadrut istiqamətində irəliləyirdik, "pexota" (quru qoşunları) bizdən çox arxada idi. Qəsəbəni aldıq, tam nəzarəti ələ keçirtdik. Tapşırıq verildi ki, bir müddət burda qalacağıq. Düşmən hər şeyini atıb qaçmışdı. Maşın, texnika, mal-qara və s. Uşaqlar tez bir danaı kəsdilər ki, iki günlük aclıq hissimizi yatıraq, həm də biraz istirahət edək. Dananı yenicə kəsib-soymuşduq ki, tapşırıq dəyişdi və irəli əmri verildi, dana qaldı biz getdik (red.-gülür).**

- Hansısa rayon və kəndlərimizin işğaldan azad edilməsi hissi çox gözəl idi. Hər birimiz bütün günü sosial şəbəkələrdə ancaq cəbhə xəbərlərini izləyirdik. Yəqin ki, bunları canlı yaşamaq tamam fərqli duyğudur. İşğaldan azad edilən torpaqlarımıza ilk ayaq basanlardan olmaq necə hiss idi?

**- Biz əks-həmlə əməliyyatları başlayan zaman qarşımıza bir məqsəd qoymuşduq. Bir olacağıq və torpaqlarımızı azad edəcəyik! Vətənin hər qarışı bizim üçün əzizdi. İnanın ki, hər qarış uğrunda qan tökülürdü.**

Vətənin hər qarış torpağı, kəndləri, qəsəbələri azad olduqca ruh yüksəkliyimiz daha da artırdı. Doğrudur, düşmənin son 30 il ərzində qurduğu istehkamlarını dağıtmaq çətin idi. Amma düşmən ordusunu məhv etmək, hərbi silah-sursatlarını qənimət kimi götürmək, hansısa kəndimizi və rayonumuzu işğaldan azad etmək tamam fərqli hislər yaradırdı. Bunu ilk biz bilirdik, lakin cənab Prezidentin xalqa müraciəti, xalqın coşğusu, həmçinin hərbçilərimizə olan xalq dəstəyi əlavə güc və stimul verirdi.

**- Son olaraq Azərbaycan Ordusunun zabit və əsgərlərinə arzularınız...**

- Ordumuzun əsgər və zabitlərinə ilk olaraq can sağlığı, uzun ömür arzulayıram. Şəhidlərimizə Allahdan rəhmət, qazilərmizə şəfa diləyirəm. Döyüşlərdə iştirak etmiş əziyyəti keçən hər bir zabiti, əsgəri bu tarixi zəfər münasibətilə təbrik edir, uğurlar arzulayıram. Sizlərə və redaksiyanızın rəhbərliyinə dərin təşəkkür edirəm ki, bizləri daim diqqətinizdə saxlayırsınız...

**Söhbtləşdi: Yeganə Bayramova**